

## VÜSAL ADIGÖZƏLOV

**Vüsal Ağaəmi oğlu Adıgözəlov 5 may 1994-cü ildə Bakı şəhərində anadan olub. C.Cahangirov adına 4 saylı orta məktəbdə orta təhsilini başa vuraraq Bakı Kompüter Kollecinə daxil olub və 2012-ci ildə orta ixtisas üzrə təhsilini tamamlayandan sonra hərbi xidmətə yollanıb.**

**Hazırda mehmanxana sahəsində içki mütəxəssisi vəzifəsində çalışır, eyni zamanda tərcüməçi kimi fəaliyyət göstərərək, yerli ədəbi saytların birində Rus və Azərbaycan dillərindən hekayələr, esselər və müxtəlif məqalələr tərcümə edir. Yaradıcılıqa son 3 ildə daha çox diqqət ayırır, yazdığı poeziya nümunələri əsasən heca vəznində olsa da, ilk yazıları əruz vəznində olub.**

### *POEZİYA ÇƏLƏNGİ*

Deyəsən, hardasa qarşılaşmışıq,
İyul küləyində, mart yağışında.
Bəlkə qış qarında,bəlkə payızda,
Tozlu küçələrin yır-yığışında.

Bəlkə də qatarda hamıdan qabaq
Yerimi verdiyim qadın sən idin.
Ya tibb bacısıydın, mən göz açanda
İlk dəfə gördüyüm qadın sən idin...

Deyəsən, hardasa qarşılaşmışıq,
Hansısa yuxumda yatmısan mənim.
Bəlkə də... bəlkə də... xatırlamıram,
Haçansa gözümə batmısan mənim.

Bəlkə də mən heç vaxt yıxılmamışam
Çünki sən əlimdən tutmusan mənimə

Mənə "Oğlum" deyib alnımdan öpən
Yolu keçirtdiyim qarısan, bəlkəə
Çəhrayi çantalı tələbə qızsan
Üzbəüz qapıda qalırsan, bəlkəə

Bəlkə, yer üzündə olmamısan heç,
Mən səni görmüşəm sən olmayanda.
Bəlkə, yer üzündə olmamısan heç,
Bəlkə, də olmusan mən olmayanda.

Qopub yaddaşımdan bəzi səhfələr
Bəzi itkilərlə razılaşmışıq.
Hər səhər yanımda oyanan qadın
Deyəsən... hardasa qarşılaşmışıq...

**XXX**

Səhər gün işıqı, gecə tənhalıq
Düşür yatağımın baş tərəfinə.
Bütün "dönməyəcəm" deyib gedənlər
Dönür ürəyimin daş tərəfinə.

Mən çox dəyişkənəm, yaz havası tək
Mülayim olmamış coşaram yenə.
Mən çox dəyişkənəm, aldanma mənə,
Öyrəşmə üzümün xoş tərəfinə.

Belə soyuq olma, bir ətrafa bax,
Bunun donanı var, üşüyəni var.
Qapımın ağzında bir ac canavar
Ulayır ömrümün qış tərəfinə.

Həyat bir dəfə də nağıl ola kaş!
Qara cızıqlardan, xəttlərdən keçib
Xoşbəxt, acısız bir sonluq da seçib
Yazasan ömrünün boş tərəfinə.

Ölsəm, beş keçirdin, yeddi yox, qırx yox,
Bu dünya elə beş günlükdür, Allah!
Gün düşən tərəfi tünlükdür, Allah!
Gedirəm torpağın yaş tərəfinə

**XXX**

Hamının darıxmaq, təklik haqqı var,
Mən sənin haqqına girsəm, darıxma.
Deyirlər ikinci fürsət də olur
Bəlkə bir də gəldim... ölsəm, darıxma.

Xətrinə özündən keçən adamın
Xətrinə dəyməzlər... dəyməzlər, qızım.
Hər açıq qapıdan girməzlər evə
Hər bağlı qapını döyməzlər, qızım.

Gedəndə üstünə çəkdiyin qapı
Qayıdıb görürsən geri bağlanır.
Hər gün bir qapıdır həyatımızda
Birini açırsan, biri bağlanır.

Bu gün gəlin çıxır, xeyir iş keçir,
Səhər ölən olur, şər çıxır evdən.
İlahi, bir su səp tozunu alım
Harasın sürtürəm kir çıxır evdən.

Səhər açdıqımız pəncərə boyda
Gecə örtdüyümüz qapı boydadır.
Bizim daxmamıza xoşbəxtlik sığmaz
Hər iynənin gözü sapı boydadı.

Bir dəfə qapımı döyməyən Adam,
Məni öləndə də rahat qoyarsan.
Başdaşı yerinə köhnə bir qapı
Üstünə əqrəbsiz saat qoyarsan.

**XXX**

Bu səhər daha bir yoxluq doğulur,
Günəş çixmağa yox, batmaqa gəlir.
Bu dünya gəlməli yer deyil, Allah,
Gələn də başını qatmaqa gəlir.

Hara qaçıb getdim, özümü gördüm,
Bir addım özümdən geri qalmıram.
Bəzən heç elə bil nəfəs almıram,
O mənə özünü satmaqa gəlir.

Bu ömür nə uzun nərdivan imiş,
Bir çürük pilləsi düşdü mənə də.
Heç kim axırını bilmir, yenə də
Hamı axırına çatmaqa gəlir.

Nə bilim... Həyatdır, kimsə yad olur,
Kimsə yanımızda qalmağı seçir.
Kimsə yağış kimi ömründən keçir,
Kimsə çətirini tutmağa gəlir.

Gözünün içinə baxan biri yox,
Tənhalıq içindən yeyir qapımı.
Hər gecə bir qadın döyür qapımı,
O da yanıma yox, yatmaqa gəlir.

**XXX**

Qollarım çarmıx üstünə
Qoşa vurur özünü.
Dərd də bezib bir olmaqdan
Beşə vurur özünü.

Hər şeyi üşüdür bizi
Yağışı da qarı da.
Bu dünyanın baharı da
Qışa vurur özünü.

Hər şey son həddinə çatıb
Hamı dişini sıxıb.
Daş özü əlimdən çıxıb
Quşa vurur özünü.

Ya balıqdır bu, gah sola
Gah başın sağa çırpır,
Çapalayır dağa çırpır,
Daşa vurur özünü.

Bu da yaşadığın həyat,
Bu da çatdığın ömür.
Başını qatdığın ömür
Başa vurur özünü.

**XXX**

Heç nə həmişəlik deyil
İplər qırılanacandır.
Ömür, həyat, nəfəs -
Hər şey qəbir qazılanacandır

Keçəcək... Hər şey keçəcək.
Ovcunun göyə baxmaqı,
Bu gecənin darıxmaqı,
Səhər açılanacandır.

Anaların yuxuları,
Ataların uca səsi...
Körpələr udub nəfəsin
Hürküb ayılanacandır

Nəyə varıqə Kimə varıqə
Niyə diriyik hələ kiə
Bütün sualların yükü
Cavab tapılanacandır.

Təmiz saxla evi, bir gün
Sənin də olar qonağın.
Bu tənhalıq ən uzağı
Dünya dağılanacandır.

**XXX**

Nə yaxşı ki, adamıq biz,
Nə yaxşı ki, daş deyilik.
Külək əsir üşümürük,
Yağış yağır, yaş deyilik.

Bir-birindən azad olduq,
Bu gündən özgə kəsik biz,
Nə yaxşı ki, qəfəsik biz,
Qəfəsdəki quş deyilik.

Çatışmır nəsə elə bil,
Elə bil çilik-çiliyik.
Min ildir ki, sevgiliyik
Hələ də tanış deyilik.

**XXX**

Nə yaxşı ki, tanış olduq,
Sevgili deyilik daha.
Bu yad soyuq görüşlərə
Gəlməli deyilik daha.

Azad olub doğmalaşdıq,
Daha özgə kəs olmadıq.
Yaxşı ki, quş ola bildik,
Yaxşı ki, qəfəs olmadıq.

Nəsə çatışmır elə bil,
Elə bil ki, tam deyilik.
Külək əsir üşüyürük,
Yağış yağır, yaş oluruq.
Yavaş-yavaş daş oluruq.
Yaxşı ki, adam deyilik.

**XXX**

Bu günün sabahı varmıə
Nə qədər qalıb sabahaə
Hələ gərək ay gizlənə,
Hələ gərək günəş çıxa.

Hər tərəfin yağış yuyur,
Hər tərəfi toz dünyanın.
Ölümü ucuz dünyanın,
Bir ölümlük daşı baha.

Hər şeyin əvvəlidirmi,
Sonudur, yoxsa bu dünyaə
Görə-görə gəlirik ya
Qayıdırıq baxa-baxaə

Ömür hazırdı bitməyə,
Ölüm qorxur ömrümüzdən.
Hamı çıxır ömrümüzdən
Kimi yola, kimi yoxa...